Tural Turan

# Qırğız ədəbiyyatında modern türk ruhu - Omar Sultanov kimdir?

***Omar Sultanov Qırğızıstanın Xalq yazıçısı kimi Azərbaycan oxucularına hələ sovetlər dönəmindən tanışdır. O, SSRİ Yazıçılar Birliyində məsul vəzifələrdə çalışıb. Qırğız Respublikası müstəqillik əldə etdikdən sonra Milli Yazarlar Birliyinin sədri vəzifəsini yerinə yetirib. Hazırda adıçəkilən qurumun ikinci katibidir.***

Omar Sultanov 2015-ci ildə Türk Dünyasında İlin adamı mükafatına da layiq görülüb. O.Sultanov hələ sovet dövründə öz əsərlərində türk və qırğız kimliyini önə çəkən ədib kimi tanınırdı. Onun yaradıcılığında türkün özünüdərk və köklərə qayıdış kodeksləri həmişə qalın xəttlə nəzərə çarpanmaqdadır. 2020-ci ilin 44 günlük Vətən Müharibəsində o, qan qardaşları olan Azərbaycan xalqının yanında olduğunu dəfələrlə sübut etdi.

10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktubda ölkəmizin haqq işini dəstəklədiyini bildirirdi. Eyni zamanda, erməni terrorunu lənətləyir, Mingəçevirdə, Tərtərdə, Bərdədə, Gəncədə əli günahsız insanların qanına batmış erməni terrorçularının tezliklə cəzalandırılmasını arzulayırdı. Omar Sultanov modern ümumtürk ədəbiyyatının inkişafına mühüm töhfələr vermiş bir qırğız yazardır.



O, 1959-cu ildə Qırğızıstan Dövlət Universitetini bitirir. Ədəbiyyata 1961-ci ildə çapdan çıxan "Dağdakı günlər" şeirlər kitabı ilə qədəm basır.

***Ardınca "Adalar arasında", "Keçit", "Yorğunluq şeirləri" adlı kitabları gün üzünə çıxır və sevilir.***

Onu daha çox məşhurlaşdıran isə "Ağ yol" adlı hekayələr kitabı olur. Oxucular bu kitabı Bişkek kitabxanalarında əl-əl gəzirlər. Yazıçı sonrakı illərdə "İnsan həyatı" romanını qələmə alır.

Omor Sultanov Aleksandr Puşkin, Bertolt Brext, Pablo Neruda, Vladimir Mayakovski, Nazim Hikmət, Rasul Həmzətov, Mixail Yuriyeviç Lermontov kimi məşhur yazarların əsərlərini qırğız türkçəsinə çevirir.

***Türk Dünyasının ünlü yazıçısı 3 aprel 2022-ci ildə dünyasını dəyişir. O, sovet dövründə Azərbaycan ədəbiyyatı haqqında həmişə yüksək fikirdə olduğunu dəfələrlə vurğulayıb və bunu həm yazılı, həm də şifahi formada ifadə edib.***